# REALLAŞAN İDEYALAR



*İsmayıl KAZIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

Vəfaddin İbayevin "Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" (Bakı, HİHİ nəşri, 2025) kitabı həm ötüb keçənləri təkrar yaşatmaq, 30 illik həsrətin göynərtisini çəkmək, unudulması mümkün olmayan keşmişə, onun ağrılı-acılı günlərinə bir də qaytarmaq, 44 günlük Vətən müharibəsinin torpaqlarımızın kənd-kənd azad olmaq sevincinin xoş həyacanlarını bir daha hiss etmək, şəhidlərimizə yanmaq, qazilərimizə dua etmək, Böyük qayıdışı düşünmək kimi bir-birinə həm yaxın, həm də biri-birindən fərqli duyğular oyadır.

Kitab kifayət qədər aktual mövzuda yazılmaqla yanaşı, otuz ildən bir qədər çox olan tariximizə tamamilə yeni bir istiqamətdən nəzər salmağın yollarını göstərə bilməsinə görə xüsusi elmi maraq doğurur. Bu yollar müxtəlif və çoxşaxəlidir. Müəllif özü araya-ərsəyə çıxartdığı elmi əsərlərə nəzər saldıqda, müəllifin yazmaq səlahiyyətlərinə haqq qazandırmağın lazım gəldiyinə rəvac veririk.

Kitab "Ön söz", 33 fəsil və nəticədən ibarətdir. Hər fəsil ayrıca müraciət, çıxış və ya müsahibənin təhlilinə həsr edilmiş və həmin materialdan götürülmüş epiqrafla başlanır. Epiqraflar Azərbaycan Prezidentinin müvafiq mətndən götürülmüş geniş təhlilə imkan verən kiçik həcmli, lakin dərin məzmunlu fikrini ehtiva edir. Əslində bu epiqraflar bir növ fəslin adı, təhlilə cəlb edilən vacib kontekst kimi qəbul oluna bilər.

Kitabın əsas qayəsi reallaşan ideyalar, onların reallaşması üçün çəkilmiş ağır zəhməti, fəaliyyəti, həmin fəaliyyətin hüquqi, siyasi və mənəvi dəyərini açmağa köklənmişdir. Şübhə yoxdur ki, bu ideyaların ən alisi, ən başlıcası Azərbaycan torpaqlarının işğaldan azad olunması təşkil etmişdir. Digər ideyalar isə bu özək ideyanın həyata keçirilməsinə xidmət göstərmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev "Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq", - deyəndə torpağın bir qarışını da işğal altında qoymayacağını nəzərdə tuturdu. İndi baş vermiş və ötmüş hadisələri qiymətləndirərkən Ali Baş Komandanın Azərbaycan tarixinin başqa bir dövründə ələ keçirilmiş, Dağlıq Qarabağ Muxtar Respublikası rəsmiləşdirilmiş, danışıqlar prosesində ən yüksək status verilmə obyekti kimi təqdim olunan, Vətənimizə qarşı fitnə-fəsad ocağına çevrilmiş tarixi torpaqlarımızı da azad etdiyini görürük.

Azərbaycanın hər qarış torpağının azad olunması haqqında xəbəri uzun illər həsrətlə gözləmişdik. 44 günlük Vətən müharibəsindən aldığımız ilk müjdədə Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin adı 2020-ci il oktaybrın 4-də "əl-Ərəbiyə" televiziya kanalını təmsil edən jurnalistin sualında da qeyd etdiyim cəhəti aydın görmək olurdu. "Suverenliyin Zəfər yolu" kitabında müəllif bu məqama diqqəti cəlb edərək yazmışdır: "Jurnalistin böhranın genişlənməsinin Azərbaycan torpağında "marionetlər müharibəsinə bənzər regionlar arasında mübarizənin baş verə biləcəyi ilə bağlı fikirlərini İlham Əliyev rədd edərək bildirirdi: "Azərbaycan müstəqil ölkədir. Bizim müstəqilliyimiz bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Azərbaycanın beynəlxalq arenada çox güclü mövqeyi var. Mən bizim nailiyyətlərimizlə bağlı sizə cəmi iki misal gətirə bilərəm. Bir neçə il bundan əvvəl 155 ölkənin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına seçildi. Bu bizim müstəqil siyasətimiz sayəsində və ölkəmizin beynəlxalq ictimaiyyətin çox məsuliyyətli üzvü olması sayəsində oldu. Keçən il biz Bakıda 120 ölkənin iştirakı ilə Qo- bayrağını qaldıracağıq!" - deyirdi. Azərbaycan Ordusunun müvəffəqiyyətlə irəliləyişindən təşvişə düşən istər Ermənistan dövlətinin rəhbərliyi, istərsə də onların havadarları bu irəliləyişə mane olmaq üçün "münaqişənin hərbi yolla həllinin olmaması barədə fikirlər səsləndirməkdə idilər. Əslində, bu fikirlər heç bir məntiqə əsaslanmırdı. Əvvəla, ona görə ki, silahlı hücum, silahlı münaqişə ilə işğal edilmiş torpaqların güc tətbiq etməklə geri qaytarılmasının nə üçün münaqişənin həlli yolu ola bilməməsi məntiqə əsaslanmırdı. Azərbaycan hərbi güc nümayiş etdirir, işğal olunmuş torpaqlarını azad edirdi. Reallıq sübut edirdi ki, hərbi yol münaqişənin həll olunmasına aparır. İkincisi, 27 ilə yaxın müddətdə danışıqlar aparılmış və heç bir nəticə əldə olunmamışdı".

Əgər müstəqilliyimizin ilk illərini, ümumiyyətlə, ötən əsrin 90-cı illərinin birinci yarısını yadımıza salıb dünya miqyasında Azərbaycanın nə dərəcədə




Azərbaycan Prezidentinin, Azərbaycan Ordusunun Ali Baş Komandanının 44 günlük Vətən müharibəsi dövründəki xalqa müraciətləri, çıxışları və verdiyi müsahibələrindəki fikirlərinə istinadla dərin siyasi, beynəlxalq hüquqi, hərbi təhlillər aparmış, həmin fikirlərlə oxşar və eyni olan paralelləri aşkara çıxarmışdır. Ən başlıcası odur ki, bu tədqiqat işi xalqın rəhbərinin və liderinin illərlə müxtəlif sahələrdə qələbənin əsasını, özülünü qoymasını, bu əsası, özülü kifayət qədər möhkəmləndirdikdən sonra yaratdığı müzəffər ordunu Vətən torpaqlarının azadlığı uğrunda döyüşə çağırıb aparmasını müəyyən ardıcıllıqla gözlərimiz önündə canlandırır. Əslində, beynəlxalq hüquqa aid dərin tədqiqatın bəhrəsi olan bu monoqrafiya geniş oxucu kütləsinin diqqətini daim cəlb edəcək mükəmməl bir əsərdir.

Kitab dövlət başçısı, siyasi xadim, diplomat, sərkərdə və hər şeydən əvvəl, Azərbaycanın vətənpərvər oğlu kimi cənab İlham Əliyevin fəaliyyətini əks etdirmək, bu fəaliyyətin hüquqi, siyasi, mənəvi və hətta dini əsaslarını açmaq istəyi ilə yazılmışdır. Son dərəcə məsuliyyətli və məsuliyyətli olduğu qədər də çətin olan belə bir yükün altına girməyi biz, bir tərəfdən, kitabın özündə işlədilmiş "ciyərli olmaq" ifadəsi ilə bağlayırıqsa, digər tərəfdən, torpaqlarımızın bu şəkildə azad olunmasını görən hər bir vətəndaşın ağlından, qəlbindən keçən əsaslı, haqlı qənaətlərlə əlaqələndiririk. Eyni zamanda, kitabdakı faktlara, elmi iqtibaslara, tədqiqatçının indiyədək vardı. Cəbrayıl sakini kimi həmin gün yaşadığım sevinc hissi heç zaman yadımdan çıxmaz. Oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şeybəy və Quycaq kəndlərinin, 4 oktyabr tarixdə isə Cəbrayıl şəhəri və daha doqquz kəndi azad edildi. Beləliklə, şanlı ordumuzun ilk azad etdiyi şəhər Cəbrayıl oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsahibələrindən biri də elə oktyabrın 4-nə təsadüf etmişdir. Həmin gün cənab İlham Əliyev "əl-Ərəbiyə" televiziya kanalına müsahibə vermişdi. Özümdən asılı olmayaraq "Suverenliyin Zəfər yolu" kitabından həmin müsahibəyə aid fəsli birinci oxudum. Bu fəslin epiqrafı "Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq!" cümləsidir. Əlbəttə, azad olunmuş təpələrdə, yüksəkliklərdə, düşmənin əlindən alınmış postlarda, kəndlərdə də bayraq qaldırılır. Ancaq rayon mərkəzində, şəhərdə dalğalanan bayrağın rəmzi mənası dah güclü, daha ötkəm və daha təsirlidir. Qoy bayrağımız hər yerdə dalğalansın! Qoy Azərbaycanın adı hər yerdə səslənsin. Vətənimizin dünya miqyasında tanınması, Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzlu yer tutması həm keçmişimiz, həm bu günümüz, həm də gələcəyimiz üçün vacibdir.

Azərbaycanın dünya birliyindəki səviyyəsini aşağılamaq, ölkəmizi olduğu kimi deyil, pis baxış bucağından təqdim etmək cəhdləri həmişə olmuşdur. Biz bunu 44 günlük müharibə dövründə də aşkar hiss etmişik. Elə şulmama Hərəkatının sammitini keçirdik və Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürdü. Bu şərəfli vəzifə 120 ölkənin yekdil qərarı ilə Azərbaycana həvalə oldu. Marionet ölkə bu dəstəyi ala bilərmi? Marionet ölkələr miskindir. Heç kim onlara hörmət etmir. Heç kim onlara diqqət yetirmir. Bu gün Azərbaycanın sözü dünya üçün əhəmiyyət kəsb edir. Bu gün regionda Azərbaycan olmadan heç bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsi həyata keçirilə bilməz...".

Azərbaycan Prezidenti Azərbaycanın dünya miqyasında öz sözünü deyə bilən, öz yerini tutmuş bir ölkə olduğunu faktlara əsaslanaraq jurnalistin nəzərinə çatdırır. 44 günlük müharibə Azərbaycan adlı dövlətə onun gücü, potensialı və tutduğu mövqe prizmasından yanaşmanın düzgünlüyünü təsdiq edirdi. Müəllif kitabında bu barədə yazmışdır: " Əslində, Azərbaycanın Ermənistanla silahlı münaqişədə uğurlu hərbi əməliyyatlar həyata keçirərək torpaqlarını ardıcıl olaraq azad etməsi onun iqtisadi, hərbi qüdrətindən xəbər verirdi. Azərbaycanın dövlət başçısının əsas vəzifəsi ölkəni idarə etmək və onu müdafiə etmək idi. Ölkəni müdafiə etmək üçün, o, sülhü sevməli və müharibə aparmağı bacarmalı idi. N.Makiavelli bu xüsusiyyətləri dövlət başçısı üçün vacib hesab edirdi. Məhz buna görə də İlham Əliyev əminliklə: "Biz insanlarımızı öz vətəninə qaytaracağıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan tanınması, beynəlxalq mmünasibətlər sistemində hansı rolu oynamasını nəzərdən keçirsək, doğrudan da, acınacaqlı vəziyyətlə üzləşmiş olacağıq. Dövlət başçımızın 2020-ci ildə dedikləri, sadaladığı faktlar vəziyyətin çox da uzun olmayan bir müddətdə müsbət istiqamətdə necə dəyişdiyini aydın görəcəyik. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına seçilməsi, Bakıda 120 ölkənin iştirakı ilə Qoşulmama Hərəkatının sammitinin keçirilməsi və 120 ölkənin yekdil qərarı ilə Azərbaycana Qoşulmama Hərəkatına sədrlik vəzifəsinin həvalə olunması suverenlik tariximizdəki çox böyük uğurlarımız sırasında özünəməxsus yer tutur. Bunlar müasir tariximizdə ardıcıl gerçəkləşmiş hadisələr olmaqla yanaşı, Azərbaycanın haqq səsinin eşidilməsində, beynəlxalq səviyyədə qəbul olunmuş qətnamələrin, qərarların yerinə yetirilməsinin beynəlxalq hüquqa əsaslanmasının təsdiqində öz rolunu oynamışdır.

"Azərbaycan Ermənistan tərəfindən məhz zorla müharibəyə cəlb olunmuşdu. Azərbaycan dövləti, onun rəhbərləri, xalqı müharibə istəmir, onu arzulamırdı, lakin Azərbaycan torpaqları həmişəlik işğal altında qala bilməzdi. Bu, xalq üçün başıaşağılıq gətirən hal idi və bu hal aradan qaldırılmalı idi. "Müharibə özü xarici siyasətin məqsədi ola bilər və diplomatiya bu məqsədə xidmət edə bilər" 179.

*(Davamı 9-cu səhifədə)*

# REALLAŞAN İDEYALAR

*(Əvvəli 7-ci səhifədə)*

Ermənistan məhz həmin prizmadan müharibədən istifadə edərək Azərbaycan torpaqlarını havadarlarının köməyi ilə zəbt etmiş və onu 27 il müddətində işğal altında saxlamışdı. Ona görə də İlham Əliyev deyirdi: "Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək. Bu da baş verir. Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala indi son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz". N.Makiavellinin fikirlərini bu məqam üçün dəyərli hesab edirik: "Əgər hərtərəfli düşünsən və düzgün vasitə seçsən, bütün bunları qəbul etmək çətin deyil, çünki burada həqiqət o qədər aydındır ki, o ən adi ağılla mənimsənilə bilər".

44 günlük Vətən müharibəsinin 44 günündə döyüşlər cəbhədə gedirdi və şanlı ordumuzun qəhrəman əsgərləri böyük igidlik və rəşadətlə vuruşur, hər gün irəli gedir, torpaqları azad edirdilər. Ancaq onu da unutmaq olmaz ki, bu 44 gündə diplomatiya cəbhəsində də çox gərgin və ağır mübarizə davam edirdi. Döyüş cəbhəsində baş verənlərin diplomatiyadakı uğurlardan asılı olduğunu onda biz az hiss etsək də, dövlət başçımızın, Ali Baş Komandanımızın qətiyyətli duruşunu, müzəffər xalqı bu qətiyyəti, barışmaz mövqeyi ilə irəli aparmasını canımızla, qanımızla duyurduq. Və bu gün "Suverenliyin Zəfər yolu" kitabını oxuyarkən cənab İlham Əliyevin hər sözünün, hər cümləsinin arxasında duran məna və məzmunun dərinliyini daha aydın başa düşür, daha aydın dərk edirik.

"Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq!" Azərbaycan Prezidenti bunu 2020-ci ilin oktyabrındakı müsahibəsində jurnalistə deməklə, onu bütün dünyaya ünvanlamışdı. Azərbaycan öz torpaqlarının işğalı ilə barışmazdı və barışmadı da. Qəhrəman ordumuzun möhtəşəm qələbəsi, Ali Baş Komandanımızın qətiyyəti, düzgün siyasəti, böyük diplomatik uğurları sayəsində bayrağımızın Xankəndidə qaldırıldı. Bu, həyatımızın bugünkü həqiqətidir. Hesab edirəm ki, bu həqiqət və bu tarixin hüquqi, siyasi əsaslarından, siyasi paralellərindən bəhs edən, ciddi elmi əsaslara söykənən "Suverenliyin Zəfər yolu" kitabı yüksək səviyyəli tədqiqat işi olub ən yeni tariximiz üçün dəyərli bir töhfədir.

***2025***